# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 208** **Bakı şəhəri, 15 iyul 2021-ci il**

**"Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 8 oktyabr tarixli 325 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 8 oktyabr tarixli 325 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1296; 2017, № 11, maddə 2139; 2018, № 2, maddə 353) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "9" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin.

2. "Kollegiyanın üzvləri" bölməsi üzrə:

2.1. dördüncü abzasdan "siyasəti" sözü çıxarılsın;

2.2. beşinci abzasda "energetika" sözü "elektroenergetika və enerji səmərəliliyi" sözləri ilə əvəz edilsin;

2.3. altıncı abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru.".

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı